# Sənətlə sehirlənmiş ömür

**Sizə söhbət açacağım kitabxanaçı Qax rayonunun MKS-in 7 saylı Qum kənd kitabxana filialının müdiri Nihayət Nurməmmədovadır. 55 yaşlı, iki övlad anası olan bu xanım sözün əsl mənasında ömrünün 35 ilini kənd kitabxanasında kitablar arasında keçirib. Ali təhsilli kitabxanaçıdır.**

Nihayət xanım qədim tarixə malik, öz potensialı ilə seçilən Qum kəndinin oxucularına xidmət etməkdən yorulmur. İl ərzində 710 oxucuya xidmət edən kitabxanaçı öz işindən zövq alır. Kənd kitabxanasına prezident İlham Əliyevin sərəncamı ilə nəşr olunan və rayon kitabxanalarına hədiyyə olunan 1250 nüsxə kitab daxil olub. Latın dilində kitabxananın fonduna hədiyyə olunan bu kitablar məktəbli oxucuların və yeniyetmələrin kitabxanaya daha çox gəlməsinə səbəb olub.

- Düzdür müasir gənclər kitab oxumaqdansa, daha çox kompüter, internetlə məşğul olmağı seçirlər. Mənim oxucularım isə belə deyil. Gün ərzində çoxlu oxucularım olur və onlara istədikləri kitabı sevə-sevə təqdim edirəm. Yay aylarında kitabxanam daha coşqun olur. Çünki ali məktəb tələbələrinin, istirahətə gələn kənd ziyalılarının ən çox baş çəkdiyi yer kitabxana olur... Kitabxanada onların iştirakı ilə keçirilən hər bir tədbir hamı tərəfindən yadda qalmaqla bərabər kitabxanaya daha çox oxucu cəlb olunmasına səbəb olur.

İnternetlə təmin olunmuş, müasir avadanlıqlarla təchiz edilmiş kitabxana sisteminin əhəmiyyəti böyükdür. Bunu başa düşürəm və bunun üçün çalışıram. Amma mənim oxucularımın 100 nəfəri təqaüdçülərdir. Onlar kitabxanaya müraciət edəndə bildirirlər ki, qızım, mən fonddan özüm istədiyim kitabı seçib oxumağa götürəcəm. Ona görə də mən çalışıram ki, həm kitabxananın ənənəvi üsulundan istifadə edim, həm də yaşlı oxucularımın tələblərini yerinə yetirim.

Qum kənd kitabxanası Qax rayon MKS-in qabaqcıl filiallarından biridir. Təsadüfi deyil ki, bu kitabxananın müdiri Nihayət Nurməmmədova 2009-cu ilin yekunlarına görə Qax Rayon Mədəniyyət və Turizm Şöbəsi tərəfindən "İlin kitabxanaçısı" elan edilmişdir. Keçirilən seminar müşavirədə onun il ərzində gördüyü işi müzakirə olunaraq, yüksək qiymətləndirilmiş, onun iş təcrübəsi yeni işə qəbul olunan kitabxanaçılar üçün nümunə göstərilmişdir.

Qum kənd kitabxanası bugünün tələblərinə cavab verə bilən kitabxanalar sırasındadır.

**Güllü ƏHMƏDOVA,**
*Qax rayon MKS-in direktoru*